

**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

# Türk tarixi və mifoloji dünyagörüşündə atlar

əvvəli ötən sayımızda

***Cütləşmə dövründə də özünəməxsus fərqli səslər, əksər hallarda qısa, kəsik-kəsik kişnəmələr edirlər. Və bunların hamısını nəzərə alsaq, atlarla ünsiyyət qurmağın, onlarla anlaşmanın heç də mürəkkəb olmadığı aydınlaşır. Atlar ilxıda bir-birinə müxtəlif cür münasibət bəsləyir, eynilə insanlarda olduğu kimi, birindən xoşu gəlir, yaxud birindən aralı durmağı üstün tuturlar. Məsələn, ilxıda dostluq edən, yaxud bir-birini sevməyən atlar müşahidə etmək mümkündür. Bir-biri ilə dostluq edən atlar qarşılıqlı şəkildə bir-birlərinə xidmət göstərirlər. Bu xidmət əsas etibarilə təmizliklə bağlı olur. Atlar qarşı-qarşıya duraraq ağızları və dişləri ilə bir-birini, belini, kürəyini, boynunu "qaşıyır", müxtəlif həşarat və zərərvericilərdən bir-birlərini təmizləyirlər və s. Bu dostluq eyni zamanda oynamaq, əylənmək şəklində də olur. Məsələn, qarşılıqlı dostca qapışmalar, zərər vermədən yüngülcə dişləmələr, ön, yaxud arxa ayaqlar vasitəsilə sərt olmayan təpişmələr və s.***

Atlarda qan bağlılığı da kifayət qədər güclüdür. Eyni madyanın qulunları uzun müddət sürüdə birlikdə olmaqla digərlərindən fərqlənir. Ancaq bununla belə, birinci dərəcəli qan qohumluğu olan atlar əsla cütləşmirlər. Yetişkin atlar bütün qulunları himayə edir, onlara qayğı göstərirlər. Çox nadir hallarda ayğır qulunu öldürə bilər. Bu da o halda mümkün olur ki, ilk dəfə balalamış madyan qulundan imtina etsin, yaxud ondan hürksün. Bu zaman ayğır quluna qarşı olduqca sərt davrana bilər. Ancaq bu qəddarlığı da əsasən kürən ayğırlar edir. Bu rəngdə (boza çalan açıq-sarı rəngli ata kürən at deyilir) olan atlar huysuz olur. Onların minilməyi də, çapılmağı da çətindir. Kürən atlar bəzən sahiblərinə qarşı olduqca sərt olur, hətta onları belə sərt şəkildə vura, yaxud dişləyə bilirlər. Bəzi hallarda bu, ölümlə belə nəticələnə bilir. Əgər bütün bu davranışlara nəzər salsaq, atların nə qədər dərin sosial münasibətlərə malik olduğunu görərik. Bu qədər həssas və incə münasibətlərə və davranışlar sisteminə sahib olan canlılar mükəmməl olmaqla bərabər insanlara qarşı itaətləri ilə də heyrətləndiricidirlər. Atlar sosial baxımdan o qədər inkişaf etmiş canlılardır ki, onları tək saxlayan zaman eynən insanlar kimi darıxırlar, hətta depressiya belə keçirə bilirlər. Bu zaman atlar sahibini, yaxud ona xidmət edəni dişləyə bilir. Axurunun taxtasını gəmirir, daima hücum vəziyyətində olur. Bununla belə nə qədər qəribə olsa da, atanlayırlar. Ona görə də ev şəraitində atı saxlayarkən onu əsla yalqız buraxmaq olmaz. Depressiya keçirən at isə istər sahibinə, istərsə də ətrafdakılara qarşı aqressiv olur. Ona görə də əgər evdə at saxlayırsınızsa, ikinci, yaxud üçüncü atı saxlamağa imkan yoxdursa, o zaman çıxış yolu kimi atla bərabər digər sürü heyvanlarından birini saxlamaq lazımdır. Məsələn, tövlədə atla bərabər digər sürü şəklində yaşayan heyvanlardan inəyin, qoyunun, keçinin, hətta dovşanın belə olması atı təklik depressiyasından qoruya bilir. İlxılar azyaşlı uşaqlara qarşı əsasən aqressivlik nümayiş etdirmir, əksinə, onlarla həlim və mülayim davranır, onlarla oynamağa üstünlük verirlər. Sanki uşaqların məsum və təhlükəsiz olduqlarını isə atların hərtərəfli inkişafını təmin edən təbii mühitdir. Ən gözəl, ən ağıllı, ən cəsur, ən yaraşıqlı atlar da elə ilxıda yetişir. Seleksionerlər isə sadəcə buna həsəd aparırlar.

***Elə insanlarla qarşılaşarkən də ilk təmasdaca atlarla insanların psixoloji enerjisinin toqquşması baş verir. Əgər insanın psixoloji enerjisi güclü və müsbətdirsə, at ona tabe olur, daha doğrusu, onun liderliyini qəbul edir. Yox, əgər insan zəif və mənfi psixoloji enerjiyə malikdirsə, at bunu dərhal hiss edərək ona tabe olmur, lider hesab etmir, itaət göstərmir. Ona görə də hazırda Qərb ölkələrində rəhbər kadrların seçilməsi zamanı onları atlarla davranışda test edirlər. Əgər at müəyyən prosedurlar prosesində həmin şəxsin liderliyini qəbul edirsə, o, testdən keçmiş sayılır. Deməli, o, rəhbərlik etdiyi kollektivə də öz liderliyini qəbul etdirə bilər.***



***Elə insanlarla qarşılaşarkən də ilk təmasdaca atlarla insanların psixoloji enerjisinin toqquşması baş verir. Əgər insanın psixoloji enerjisi güclü və müsbətdirsə, at ona tabe olur, daha doğrusu, onun liderliyini qəbul edir. Yox, əgər insan zəif və mənfi psixoloji enerjiyə malikdirsə, at bunu dərhal hiss edərək ona tabe olmur, lider hesab etmir, itaət göstərmir. Ona görə də hazırda Qərb ölkələrində rəhbər kadrların seçilməsi zamanı onları atlarla davranışda test edirlər. Əgər at müəyyən prosedurlar prosesində həmin şəxsin liderliyini qəbul edirsə, o, testdən keçmiş sayılır. Deməli, o, rəhbərlik etdiyi kollektivə də öz liderliyini qəbul etdirə bilər***

Atlara qarşı nə qədər mehriban davransanız, onlar da sizə eynilə davranacaqlar. Zor tətbiq etmək istəsəniz, bu güclü varlıqlar da sizə zor tətbiq edəcəklər. Ona görə də atların etimadını qazanmaq onlarla ünsiyyət zamanı birinci şərtdir. Atlar sizin ondan qorxduğunuzu hiss etsələr, əsla sizi yaxına buraxmayacaq, əmrlərinizə tabe olmayacaqlar. Ona görə də atları tərbiyə edən zaman sizdə daxili arxayınlıq və daxili inam olmalıdır ki, at sizi lider kimi qəbul edib itaət göstərsin. Unutmaq olmaz ki, at sürü iyerarxiyasi psixologiyası ilə yaşayır və özündən zəifi, qorxağı əsla lider kimi qəbul etmir. Ancaq bu o deməkdeyil ki, atları cəzalandırmaq olmaz. Təlim prosesində mükafatlandırma və cəzalandırma paralel olmalıdır. Ancaq at mütləq hiss etməlidir ki, o, hansı hərəkətinə görə cəzalandırıldı, hansı hərəkətinə görə isə mükafatlandırıldı. Bunu etməyi bacarsanız, atların etimadını və etibarını qazanacaq, ona tam sahib ola biləcəksiniz. Mükafat siyahısına birinci növbədə tumarlamaq və daima mülayim səslə atı oxşamaq daxildir. Ümumiyyətlə, atlar sevir ki, sahibi onunla daima danışsın. Ancaq atı tumarlayarkən çalışmaq lazımdır ki, onun bədəninin uzunluğunun ortasından arxa tərəfə keçməyəsiniz. Çünki bir az da arxaya keçsəniz, atın dal ayaqlarının zərbə əhatəsinə girmiş olursunuz. Atın hansı tərəfində olsanız, yüyəni mütləq o tərəfdən tutun. Əgər at sizi vurmaq fikrinə düşsə, bunu edə bilməyəcək. Çünki yüyəni azca çəkməklə onun zərbə mövqeyini pozacaqsınız. Ancaq bütün bu davranışlar, əlbəttə ki, xam yaxud tanımadığınız atlarla ünsiyyətdə keçərlidir. Tanıdığınız yaxud sizi sahibi kimi mənimsəmiş atların bədəninin hər yerini qaşovlaya, tumarlaya bilərsiniz. Yalnız onun görüş məsafəsindən çıxdıqda ehtiyatlı olmaq lazımdır. Atın görüş məsafəsi isə çox genişdir. O, bir sürücünün yan aynalardan sağ və solunu gördüyü kimi, ətrafları çox rahat görə bilir. Hətta üstündəki minicini də görür. Yalnız tam arxasını görə bilmir. Ona görə də görüş alanından kənarda hər hansı bir hərəkəti özünümüdafiə refleksi ilə təhlükə kimi qəbul edir.

Ümumiyyətlə, atlar insanla ünsiyyətə olduqca meyillidirlər. Sosial varlıq kimi ünsiyyət insanların başlıca mənəvi tələbatı olduğu kimi, elə atların da tələbatı hesab edilə bilər. Ona görə də bu heyvanlarla danışmaq, oxşamaq, tənbeh etmək, bəzən səsini ucaltmaqla çox yaxşı sosial bağ qurmaq mümkündür.

## Troya atı... nə demək idi

Yunan Troya müharibələrinin sonu (b.e.ə. 1193-1183) troyalıların məğlubiyyəti ilə başa çatdı. Müharibəyə səbəb Troya hökmdarı Priamosun, yaxud Priamın oğlu Parisin, yaxud Parsın Spartanın, yəni axeyililərin hökmdarı Menelaosun, yaxud Menelayın arvadı Heleni, yaxud Eleni qaçırması idi. 10 il davam edən savaşda spartalılar heç bir uğur əldə edə bilmədilər. Nəhayət, Odissey adlı bir ion taxtadan at düzəltmək qərarına gəldi. Niyə at? Bax, burada əsl mətləbə keçək. Yunanlar troyalıların atı çox sevdiklərini bilirdilər. Atın əvəzinə başqa hansı heyvanın maketini düzəltsəydilər, troyalılar onu qalanın içərisinə çəkməyəcəkdilər. Belə olan halda həmin maketin içərisində gizlənmiş əsgərlər də qalanın içərisinə daxil olub qala qapılarını Sparta və afinalıların üzünə açmayacaqdılar. Yunanlar türklərin xarakterini yaxşı bildikləri üçün onlara qarşı belə bir hərbi hiylə işlədirlər. Odisseyin düzəltdiyi taxta atın içərisinə xeyli sayda döyüşçü gizlədərək onu qala yaxınlığında buraxıb getdilər. Atın yanında isə Sinon adlı bir əsgər qoydular.

***Troyalılar qəribə atın yanına gələrkən əsgər bildirir ki, bu atı Tanrı afinalılara bir qurban kimi göndərib. Afinalılar Tanrının bu hədiyyəsini qəsdən burada qoyub getdilər ki, troyalılar onu yandırsınlar və Tanrı bundan acıqlanıb onlardan üz döndərsin. Beləliklə də afinalılar savaşı qazansınlar. Bu məsələni öyrənən troyalılar Tanrının qəzəbinə gəlməmək üçün atı qalanın içərisinə aparırlar. Artıq zəfərin onların olacağına inanan troyalılar gecə boyu şərab içib şənlənirlər. Səhərə yaxın şərabın təsirindən sayıqlığını itirən Troya əsgərləri sərxoş vəziyyətdə yatırlar. Bu zaman atın içərisində gizlənmiş yunan döyüşçüləri qala qapılarını açaraq yunan ordusunu içəri alırlar. Və... Bir mədəniyyətin sonu çatır...***

***Bu tarix və bu aldatma üsulu təqribən 600 il sonra yenidən təkrar olunacaqdı. Bu dəfə lidiyalı Krezin məsləhəti ilə Kir skiflərin ordusu üçün şərabla zəngin bol süfrə qoyub məğlub olmuş kimi qaçacaqdı. Türklər yenə də sadəlövhcəsinə bu tələyə düşüb içib sərxoş olacaqdılar. Geri dönən perslər isə onların başını kəsəcəkdi. Bu haqsızlığın və namərdliyin cəzasını isə Tomris kəsəcək, Kiri qan tuluğunda boğacaq, türklər yenə qalib olacaqdılar.***

(davamı gələn sayımızda)